**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**

**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ1122 Bakı şəhəri, H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az

"___" __________ 2015-ci il №__________

**ƏMR № 126**

**Bakı şəhəri** **18 may 2015-ci il**

**"Səhiyyə Nazirliyinin "2014-2020-ci illər üçün Strateji Planının həyata keçirilməsi üzrə Fəaliyyət Planı"na uyğun sorğunun və müzakirələrin təşkili haqqında"**

Səhiyyə Nazirliyinin "2014-2020-ci illər üçün Strateji Planı"nın həyata keçirilməsi üzrə Fəaliyyət Planının 3.2.2 və 3.3.8-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. 2015-ci ilin sonunadək Respublikanın Bakı, Gəncə və Mingəçevir şəhərlərinin, Xızı, Qax, Lənkəran, Qusar, Ağdam və Şamaxı rayonlarının hər birində bir uşaq poliklinikası, bir qadın məsləhətxanası və bir böyüklər üçün poliklinikada çalışan həkimlər arasında sorğu və 4 fokus qrup müzakirəsi təşkil edilsin.
2. Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsi üçün iş planı təsdiq edilsin (Əlavə).
3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsi üçün iş planına uyğun xərclərin smetası tərtib edilsin və həmin smeta üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.
4. Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsinə nəzarət, eləcə də bu tədbirlər barədə məlumatın verilməsi Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri Töhfə Cəmilovaya tapşırılsın.
5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

27.04.2015

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üçün Strateji Planı üzrə Fəaliyyət Planının 3.2.2 (İSX tibb işçiləri üçün klinik protokolların və metodik tövsiyələrin işlənib hazırlanması) və 3.3.8 (Tibbi xidmətlərin keyfiyyət standartları sisteminin yaradılması və müalicə prosesində sübutlu təbabət prinsiplərinin tətbiqinin və milli klinik protokolların, metodik tövsiyələrin hazırlanmasının davam etdirilməsi) bəndlərinin icrasını təmin etmək məqsədilə ilkin səhiyyə səviyyəsində çalışan həkimlər arasında Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş klinik protokollar barədə məlumatlılıq səviyyəsinin öyrənilməsi, həmin protokollar və tövsiyələrin onların gündəlik fəaliyyətində tətbiqinin qiymətləndirilməsi, habelə mövcud və gələcəkdə hazırlanması planlaşdırılan klinik protokollar və praktik tövsiyələrin yaxşılaşdırılmasına dair fikir və tövsiyələrinin öyrənilməsi, eyni zamanda sübutlu təbabət və xəstələrin diaqnostika və müalicəsinə dair qərarların qəbulunda sübutlu təbabət prinsiplərinin tətbiqi vəziyyətinin qiymətləndirilməsi üzrə araşdırmanın aparılması təklif olunur. Həmin araşdırmanın nəticələri İSİM-də hazırlanacaq klinik protokollar və praktik tövsiyələrin tərtibi və təkmilləşdirilməsi prosesinin yaxşılaşdırılması, eləcə də klinik protokolların yerlərdə tətbiqi üzrə davamlı mexanizmlərinin işlənilməsi üçün geniş istifadə oluna bilər.

Araşdırmanın keçirilməsi Bakı, Gəncə və Mingəçevir şəhərlərində, habelə Xızı, Qax, Lənkəran, Qusar, Ağdam və Şamaxı rayonlarında planlaşdırılır. Layihə çərçivəsində (Bakı şəhəri istisna olmaqla) adı çəkilmiş şəhər və rayonların hər birində bir uşaq poliklinikası, bir qadın məsləhətxanası və bir böyüklər üçün poliklinikada çalışan həkimlər arasında sorğunun və 4 *fokus* qrup müzakirənin keçirilməsi nəzərdə tutulub. Bakı şəhərində isə araşdırma şəhərin iki inzibati rayonunda aparılacaq.

Tədbirlərin icrasına dair təklif olunan plan və büdcə əlavə edilir.

**Səhiyyə Siyasəti və İslahatlar**
**şöbəsinin müdiri**

**Töhfə Cəmilova**
**27.04.2015**

**Təsdiq edirəm:**

**İctimai Səhiyyə və İslahatlar Mərkəzinin**

**direktoru_______________C.Y.Məmmədov**

**"_____"_________________2015-ci il**

**Seçilmiş rayonlarda ilkin səhiyyə xidmətləri səviyyəsində çalışan**

**müxtəlif ixtisaslı həkimlər arasında klinik protokollar və sübutlu təbabət üzrə**

# ARAŞDIRMA

## Layihənin müddəti: 5 ay

| Tədbir | Tarixlər | Məsul şəxs |
|---|---|---|
| **I-ci mərhələ** | | |
| Araşdırma üçün metodologiyanın hazırlanması | 20-30 May | Töhfə Cəmilova<br>Rüfət Rəhimov<br>Vəfa Ağayeva |
| Sorğu vərəqəsinin ingilis dilindən tərcüməsi və redaktəsi | 18-23 May | Vəfa Ağayeva |
| Sorğu vərəqəsinin milli ehtiyaclara adaptasiyası, yeni sualların tərtibi | 25-27 May | Töhfə Cəmilova<br>Vəfa Ağayeva<br>Səhla İsmaylova |
| Sorğu qrupunun yaradılması və təlimatlandırılması | 18-29 May | Töhfə Cəmilova<br>Vəfa Ağayeva |
| Bakıda pilot sorğusun aparılması və sorğu vərəqəsinin təkmilləşdirilməsi | 27-29 May | Vəfa Ağayeva<br>Zuleyxa Abdurrazaklı<br>Elmir Valehli |
| Sorğu vərəqələrinin çap edilməsi (1500 nüsxə) | 1-3 Iyun | Abuzər Məmmədov |
| Sorğunun sahə işlərinin planlaşdırılması, marşrutların və komandaların müəyyən edilməsi | 25-29 May | Töhfə Cəmilova<br>Vəfa Ağayeva<br>Rüfət Rəhimov |
| **II-ci mərhələ** | | |
| Bakıda sorğuların aparılması<br>Təşkil və nəzarət<br>Bakıda fokus qrup müzakirəsinin təşkili | 7 Iyun - 7 iyul | İntervüyerlər<br>Şəhla İsmaylova<br>Töhfə Cəmilova |
| Regionlarda sorğuların aparılması<br>1 səfər: Gəncə və Mingəçevir şəhərləri, Ağdam rayonu<br>2 səfər:Xızı və Qusar rayonları<br>3 səfər: Şamaxı və Qax rayonları<br>4 səfər: Lənkəran rayonu<br><br>Regionlarda fokus qrup müzakirələrinin təşkili (Qax, Qusar, Lənkəran) | 7 İyun -7 Iyul | İntervüyerlər<br><br><br><br><br><br>Töhfə Cəmilova<br>Rüfət Rəhimov |
| Məlumat bazasının yaradılması | 5-10 Iyun | Qəhrəman Haqverdiyev |
| Toplanmış məlumatların SPSS məlumat bazasına daxil edilməsi və<br>bazanın təmizlənməsi | 10 iyun - 5 iyul<br>5-10 iyul | Vusal Bayramov<br><br>Qəhrəman Haqverdiyev |

| III-cü mərhələ | | |
|---|---|---|
| Məlumatların təhlili və Hesabatın hazırlanması | İyul-avqust | Nabil Seyidov |
| Hesabatın təqdimatı | Sentyabr | Nabil Seyidov<br>Töhfə Cəmilova |
| Hesabat əsasında təklif və tövsiyələrin tərtib edilməsi və müzakirəsi | Sentyabr | Nabil Seyidov<br>Şəhla İsmaylova<br>Töhfə Cəmilova |